"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 1
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 1
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 1

**UOT 82:801.6;82-1/-9**

**MAHİRƏ İSMAYILOVA**
AMEA Naxçıvan Bölməsi
i.mahire@bk.ru

# HÜSEYN RAZİNİN LİRİKASINA DAİR BƏZİ QEYDLƏR

*Məqalədə Hüseyn Razidən, onun yaradıcılığından,lirikasında istifadə etdiyi janrlardan,şeirlərinin mövzusundan bəhs edilir.*

*Hüseyn Razinin zəngin yaradıcıllığı onu Naxçıvan ədəbi mühitində görkəmli şəxslərdən biri etdi. Şairin yaradıcıllığında əruz,heca və sərbəst vəzndə yazılmış şeirlərə rast gəlinir. Lirikasında bir çox şeir formalarından istifadə edən şair daha çox qoşma formasında şeirlər qələmə almışdır.*

*Onun sevdiyi şairlərə həsr etdiyi "Məhəbbət müğənnisi" "Haraylar səni", "Füzuli","Ələsgər", "Mirzə Cəlil",1983- cü ildə qələmə aldığı "Könlüm şeir istəyir", "Şair olmaq istəyirəm", real həyatı əks etdirən "Bulaq başında", "Yağış yağır", "Bağışlamazdım",Vətənin tərənnümünü əks etdirən "Çinar","Badam ağacı", "Zanbaq", "Bənövşə", "Nilufər", "Yasəmən", dini mövzulu "Bizi qoru ulu tanrı", "Məkanın pak ürəklərdir", "Minacat" və.s şeirləri ədəbiyyatımıza zənginlik qatmışdır.*

**Açar sözlər**: *Hüseyn Razi, lirika*

Naxçıvanın görkəmli şairlərindən olan Hüseyn Razi 1924-ci il oktyabrın 17-də Ordubad rayonunun Dəstə kəndində anadan olmuşdur. Onun bu kəndə olan bağlılığını, sevgisini "Dəstə kəndi" adlı şeirində daha aydın görmək olur. İlk təhsilini Dəstə kəndində alan Hüseyn Razi daha sonralar bu məktəbdə müəllim kimi fəaliyyət göstərmişdir. Azərbaycan Dövlət Unversitetinin jurnalistika fakültəsində təhsil alan Hüseyn Razi 1947-ci ildə Sovet Naxçıvanı adı ilə tanınan "Şərq qapısı" qəzetində jurnalist fəaliyyətinə başlayır. Şairin bu fəaliyyəti ilə bərabər zəngin yaradıcılığı da həmişə ədəbi ictimaiyyətin diqqət mərkəzində olmuşdur. Naxçıvan ədəbi mühitində öz sözünü deyən Hüseyn Razi 1998-ci il fevralın 27-də vəfat edir və doğulduğu Dəstə kəndində dəfn olunur.

Onun poeziyası, nəsri və dramaturgiyası haqqında "Ədəbiyyat və incəsənət", "Azərbaycan gəncləri", "Kominist", "Bakı" qəzetlərində, həmçinin Naxçıvanda fəaliyyət göstərən olduğu "Şərq qapısı" (Sovet Naxçıvanı) qəzetində məqalə və resenziyalar dərc olunmuşdur.

Tanınmış Azərbaycan şairlərindən biri olan Hüseyn Razini ədəbi yaradıcılığın bütün janrlarından istifadə etməklə yaradıcıllığını zəngin və çoxcəhətli etmişdir. Buna görə də çağdaş Azərbaycan poeziyasında öz fərdi dəsti-xətti və üslubu ilə fərqlənmiş həmçinin Naxçıvan ədəbi mühitində də sayılıb seçilən

**Məqalə tarixçəsi:**
Göndərilib: 04.02.2019, qəbul edilib: 25.02.2019

yazıçılardan biri olmuşdur.

Azərbaycan poeziyasının son dövrlərinə nəzər saldıqda poeziyanın ümumi inkişaf tendensiyalarını ayrı-ayrı meyilləri və axınları, həm də bu poeziya da mühüm rol oynayan poetik fərdiyyətləri görürük.

Hüseyn Razi yaradıcıllığının müəyyən dövrlərində sevdiyi şairlərin əsərlərindən bəhrələnmiş və onlardan təsirlənərək yaradıcıllığını daha da zənginləşdirmişdir. Onun ayrı-ayrı görkəmli sənətkarlara həsr etdiyi şeirləri məhz bu hörmət və ehtiramın nəticəsidir. Hüseyn Razinin dahi şair Nizami Gəncəviyə həsr etdiyi “Məhəbbət müğənnisi”, Molla Pənah Vaqifin xatirəsinə yazdığı “Haraylar səni”,həmçinin digər şair və yazıçılara həsr etdiyi “Füzuli”, “Ələsgər”, “Mirzə Cəlil” şeirləri, daha sonralar Səməd Vurğuna, Şəhriyara, Məmməd Araza, Xəlil Rzaya ithaf etdiyi şeirləri onlara olan böyük sevgiylə yanaşı həm də yaradıcılıqlarına verilən layiqli qiymətləndirmədir.

Füzuli haqqında:

Xəzinə yaratdı dünya içində,
O,dünya malına nəzər salmadı.
Füzuli qovuşdu əbədiyyətə
Ancaq hökmdardan nişan qalmadı.(9,80)

Aşıq Ələsgər haqqında:

Gəzdi qarış-qarış vətən mülkünü,
Gördü xəyalında sabahkı günü.
Elin arzusunu,kədər yükünü
Təcnisə,qoşmaya saldı Ələsgər. (11,71)

Hüseyn Razinin poeziyasını tədqiq edərkən onun şeir-sənət haqqında poetik fikirlərini də qeyd etmək vacib məsələlərdən biridir. 1983-cü ildə qələmə aldığı “Könlüm şeir istəyir” və “Şair olmaq istəyirəm” şeirlərində Hüseyn Razi müəyyən bir poetik konsepsiyası olan şair kimi çıxış edir.

Axı kim inciyər səmimi sözdən,
Ürəyə dağ çəkir sözün harını.
Kaş ki,qaşıyaydıq biz şeirimizdən
Gərəksiz,havayı söz yonqarını.(10,50)

Bir şair kimi, Hüseyn Razi, əsasən əllinci illərdə tanınmağa başlamışdır. Ona görə də onun şeir yaradıcılığının ilk mərhələsi 1960-cı ilə qədər olan dövrüdür. Bu müddət ərzində şairin iki şeirlər kitabı  “Kəndimizin səhəri” və “Ana məhəbbəti” çapdan çıxmışdır. İkinci şeirlər kitabı 1960-cı ildə çap olunsa da, buradakı şeirlər də əllinci illərdə qələmə alınmışdır. Birinci kitabda 24, ikinci kitabda 34 şeir toplanmışdır. Onun digər şeirlər kitabı 1977-ci ildə çapdan çıxmış “Canlı tonqal”, 1991-ci ildə çap olunmuş “Gözün aydın” şeirlər kitabıdır. “Gözün aydın” şeirlər kitabına şair digər kitablarına daxil etmədiyi şeir nümunələrini daxil etmişdir. Filologiya elmləri doktoru Yavuz Axundlu “Gözün aydın” şeirlər kitabına geniş rəy yazaraq “Azərbaycan” jurnalında çap etdirmişdir. Həmçinin Yavuz Axundlu “Hüseyn Razinin sənət dünyası” adlı məqaləsində şairin yaradıcıllığı haqqında və onunla olan münasibətindən geniş məlumat vermişdir.

Hüseyn Razinin şeirlərində real həyatdan götürülmüş nümunələr də yer almaqdadır. Onun “Bulaq başında”, “Yağış yağır”, “Bağışlamazdım” “Sevgi qanadlarında” şeirləri də real hadisələr əsasında qələmə alınmışdı.

Əgər gülməsəydi ala gözlərin
Mən sənə heç zaman bel bağlamazdım
Mən sənin yerinə olsaydım yəqin,
Ölərdim,əhdimi ayaqlamazdım.(10,50s)

Hüseyn Razinin bir şair kimi özünütəsdiq mərhələsi 1960-1970-ci illərdə oldu. Doğrudur həmin illərdə Hüseyn Razi həm də nəsr və dramaturgiya ilə məşğul olmuşdur. Şairin yaradıcıllığının ikinci dövrü Azərbaycan poeziyasının yeni mərhələyə qədəm qoyması ilə başladı.

Hüseyn Razinin lirikasında yer alan “Çinar”, “Badam ağacı”, “Zanbaq” “Bənövşə”, “Nilufər”, “Yasəmən”, “Oğlanqala”, “Bu yerlər”, “Arpaçayı vadisində” şeirlərində yurdumuzun füsunkar gözəllikləri, təbiəti, gül-çiçəyi böyük ustalıqla təsvir edilmişdir.

Yağış damlaları saçaqlarına
Süzülüb,düzülüb mirvariləşər.
Bahar günəşindən budaqlarına
Ağlı,qırmızılı naxışlar düşər.(9,46s)

Hüseyn Razinin poeziyasında yer alan Vətənin tərənnümü ilə bağlı şeirləri peyzaj xarakterli şeirlər cərgəsindədir. Şairin bu tip şeirlərindən başqa onun məhəbbət şeirləri də yaradıcıllığının geniş sahəsini əhatə edir.İlk şeir kitablarında nəşr olunan məhəbbət motivli şeirlərində əzab, iztirab, kədər hissləri, sevən qəlbin fəryadı açıq şəkildə duyulur.

Sən sevda bəxş edən eşq ilahəsi,
Zərif duyğuların xoş sədasısan.
Mənə payız günü bahar töhfəsi,
Ötən gəncliyimin əlvidasısan. (11,166s)

1980-1990-cı illər Azərbaycan poeziyasında dini mövzulu şeirlər yeni bir vüsət aldı.

Şairin “Bizi qoru ulu tanrı”(1991), “Məkanın pak ürəklərdir” (1993), “Minacat” (1993) kimi şeirləri dövrün, zamanın ovqatı ilə biləvasitə əlaqədardır. “Məkanın pak ürəklərdir” şeiri dini poeziya ruhunda qələmə alınmışdır.Bu şeirdə Məhəmməd peyğəmbərin ali şəxsiyyəti poetik ifadələrlə təqdim edilmişdir.

Məkanın pak ürəklərdir Məhəmməd, ya Rəsulullah!
Adınla şöləlınmişdir şəriət, ya Rəsulullah!
Silahdır, ali hikmətdir, basılmaz ordular daim,
Bizə müşkül sınaqlarda bu qürbət ya Rəsulallah! (11,123)

Ümumiyyətlə, Hüseyn Razinin dini poeziya janrında, yaxud dini ruhda yazdığı şeirlər ənənə və novatorluğun üzvi sintezindən yaranmaqla güclü müasirlik duyğusuna malikdir.

Hüseyn Razinin şeirlərinin əksəriyyəti heca vəznindədir,sərbəst şeirləri də onun yaradıcılıq imkanlarının genişliyindən xəbər verir. O, həmçinin

sərbəst və əruz vəzndə də şeirlər yazmışdır. Hüseyn Razinin ən çox müraciət etdiyi şeir forması qoşmadır.

Alışan qəlbimə süzül su kimi,
Bir dağ çeşməsinin sal buzu kimi,
Razıyam,istəsən bir quzu kimi,
Hər saat qurbanın olaram,gülüm.(8.111-112 s)

Hüseyn Razi yaradıcılığı haqqında ən dolğun məlumatlara Nadir Qəşəm oğlu İsmayılovun "Hüseyn Razinin yaradıcılıq yolu" adlı kitabında rast gəlinir. Üç fəsildən ibarət olan bu kitabın birinci fəsli şairin həyatından və ədəbi mühitindən, ikinci fəslində lirik yaradıcılığından,üçüncü fəsildə isə Hüseyn Razinin nəsr,dramaturgiya və publistikasından bəhs edilir. Professor Yavuz Axundlu qeyd edir ki, Nadir İsmayılovun kitabı tanınmış qələm sahibi Hüseyn Razinin mənalı ömür yolu və çoxcəhətli yaradıcıllığı haqqında dolğun təsəvvür oyadır.

Ədəbiyyatşünas Kamran Əliyev Hüseyn Razi yaradıcılığından bəhs edərək bu fikirləri qeyd etmişdir: "Qarşıya qoyulan ideyanı nəsillərə çatdırmaq arzusu və bu ideyaya inam yaratmaq məqsədi sənətkar üçün ən böyük, ən ali məqsəddir" (3,s.109)

Belə bir nəticəylə qeyd etmək lazımdır ki, Hüseyn Razi XX əsrin Azərbaycan ədəbiyyatının son 50 ili ərzində öz istedadı ilə diqqəti cəlb edən sənətkar olmuş, özündən sonra yaşamaq qüdrətini saxlayan bir çox dəyərli əsərlər yaratmışdır.

**ƏDƏBİYYAT**

1. Axundlu Y. Seçilmiş əsərləri, üç cilddə, I cild. Naxçıvan: Əcəmi, 2013, 312s
2. Beliniski V.Q. Seçilmiş əsərləri. Bakı: Gənclik nəşriyyatı, 1979, 228s
3.Əliyev K.Mirzə Fətəlidən Hüseyn Cavidə qədər. Bakı: Yazıçı nəşriyyat, 1998, 120s
4. Razi H. Kəndimizin səhəri (şeirlər), Naxçıvan: 1958, 30s
5. Razi H. Ana məhəbbəti (şeirlər), Bakı: Azərnəşir, 1960, 57s
6. Razi H. Alovlu yollar, 1960, 93s
7. Razi H. Buludlar arasında (povest), Bakı: Uşaqgəncnəşr, 1961, 89s
8. Razi H. Ayrılmaram (şeirlər), Bakı: Yazıçı, 1981, 241s
9. Razi H Səsləşən dağlar (şeirlər), Bakı: Azərnəşr, 1970,147s
10. Razi H. Araz sahilində (şeirlər), Bakı: Gənclik, 1974, 14s
11. Razi H. Gözün aydın. Bakı: Azərbaycan nəşriyyatı, 1996, 232 s

**РЕЗЮМЕ**

**МАХИРА ИСМАЙЫЛОВА**

**ЛИРИКА ГУСЕЙНА РАЗИ**

В статье рассмотрено творчество Гусейна Рази, жанры, использованные в его лирике, темы поэтических произведений. Гусейн Рази родился в 1924 году в селе Десте Ордубадского района, до 1947 года учился на факультете журналистики Азербайджанского государственного университета, затем работал в газете «Шерг гапысы». Он скончался в селе Дуста 27 февраля 1998 года, там же и похоронен.

Большую роль в освещении его работ сыграли газеты «Литература и искусство», «Молодежь Азербайджана», «Коммунист», «Баку» и «Шерг

гапысы». Богатое творчество Гусейна Рази сделало его одной из выдающихся фигур в литературной среде Нахчывана. В творчестве поэта встречаются стихотворения, написанные в стихосложном размере, а также силлабические и белые стихи. Поэт, использовавший в своих текстах множество поэтических форм, чаще всего писал
стихотворения с парными рифмами.

Его стихотворения «Певец любви», «Харайлар сени», «Физули», «Аласгар», «Мирза Джалил», посвященные его любимым поэтам, написанные в 1983 году «Моя душа хочет стихов», «Хочу стать поэтом», отражающие реальную жизнь «У родника», «Дождь идет», «Не простил бы», воспевающие Родину «Чинар», «Миндаль», «Занбаг», «Фиалка», «Лилия», «Сирень», духовные стихотворения «Защити нас, великий создатель», «Чистые сердца пространства», «Минаджат» и другие внесли большой вклад в нашу литературу.

**Ключевые слова:** Гусейн Рази, лирика.

**SUMMARY**

**MAHIRE ISMAYILOVA**

**LYRICS OF HUSSEIN RAZI**

The works of Hussein Razi, the genres used in his lyrics, the themes of poetic works have been considered in the paper. Hussein Razi was born in 1924 in the village of Dasta, Ordubad district, until 1947 he studied at the faculty of journalism of Azerbaijan State University, and then worked in the newspaper "Sherg Gapysy". He died in the village of Dasta on February 27, 1998, and was buried there.

A major role in the coverage of his works was played by the newspapers "Literature and Art", "Youth of Azerbaijan", "Communist", "Baku" and "Sherg Gapysy". The rich work of Hussein Razi made him one of the outstanding figures in the literary environment of Nakhchivan. In the poet's works there are poems written in a simple size, as well as syllabic and blank verses. The poet used many poetic forms in his texts, but most often he wrote poems with paired rhymes.

His poems "Singer of Love", "Haraylar Seni", "Fizuli", "Alasgar", "Mirza Jalil", dedicated to his favorite poets, "My soul wants poems", "I want to become a poet" written in 1983, "At the spring", "It is raining", "I wouldn't forgive" reflecting real life, "Chinar", "Almond", "Zanbag", "Violet", "Lily", "Lilac" singing the Motherland, spiritual poems "Protect us, great creator", "Pure Hearts of Space", "Minajat" and others have made a great contribution to our literature.

**Keywords:** Husein Razi, lyrics.

*(Akademik Əbülfəz Amanoğlu Quliyev tərəfindən təqdim edilmişdir)*